

*Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir.*

*Heydər Əliyev*


# MÜBARİZ KEŞİKDƏ

9 yanvar 2020-ci il
Cümə axşamı

№ 1 (3466)

www.mk.mia.gov.az

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


# PREZİDENT İLHAM ƏLİYEVİN DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ XALQA MÜRACİƏTİ



-Əziz həmvətənlər.

2019-cu il arxada qalır. Bu il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla icra edildi, Azərbaycan öz inkişaf yolu ilə uğurla gedib.

2019-cu ildə ölkəmiz sabitlik, əmin-amanlıq şəraitində yaşamışdır. Dünyada gedən proseslər göz qabağındadır. Dünyanın müxtəlif yerlərində, bizim yerləşdiyimiz regionda, postsovet məkanında, Avropada, Asiyada, Latın Amerikasında münaqişələr, müharibələr, qanlı toqquşmalar, kütləvi etiraz aksiyaları, polis zorakılığı, insan haqlarının tapdalanması geniş vüsət almışdır. Azərbaycan isə sabitlik məkanıdır, inkişaf məkanıdır. Bu, bizim böyük nailiyyətimizdir. Azərbaycan xalqı 2019-cu ildə təhlükəsizlik şəraitində yaşamış, qurmuş, yaratmışdır.

Bizim beynəlxalq mövqelərimiz daha da möhkəmləndi. İl ərzində 40-dan çox dövlət və hökumət başçısı Azərbaycana səfər etmişdir. Bizim ikitərəfli əlaqələrimiz böyük dərəcədə genişlənmişdir, çoxtərəfli formatda uğurla əməkdaşlıq edirik, ölkəmizdə bir neçə mötəbər beynəlxalq tədbir keçirilmişdir. Onların arasında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Görüşünü qeyd etməliyəm. Zirvə Görüşü nəticəsində Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik etməyə başlamışdır. Qoşulmama Hərəkatının Zirvə Görüşü Azərbaycanda keçirilmişdir və 120 ölkənin yekdil qərarı ilə Azərbaycan bu böyük təsisata 3 il ərzində sədrlik edəcəkdir. Bu, bizə göstərilən böyük etimaddır. Bu, onu göstərir ki, dünya birliyinin böyük əksəriyyəti Azərbaycanı dəstəkləyir və bizə böyük hörmətlə yanaşır.

Bu il Bakıda Dünya dini liderlərinin Zirvə görüşü keçirilmişdir, 70 ölkədən gəlmiş dini liderlər Azərbaycanda gedən proseslərə çox müsbət qiymət vermişlər. Azərbaycan multikultural, öz ənənələrinə, milli, dini dəyərlərinə sadiq ölkə kimi özünü bu Zirvə görüşündə təqdim etdi.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Bizim prinsipial mövqeyimiz ondan ibarətdir ki, bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağ tarixi əzəli Azərbaycan torpağıdır, beynəlxalq hüquq baxımından Azərbaycanın ayrılmaz hissəsidir. Bütün aparıcı beynəlxalq təşkilatlar münaqişə ilə bağlı qərarlar, qətnamələr qəbul etmişlər, öz mövqeyini ortaya qoymuşlar. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir, orada açıq-aydın göstərilir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası və digər təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişlər. Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış "Tərəfdaşlıq prioritetləri" sənədində Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərinin toxunulmazlığına böyük dəstək ifadə edilmişdir. Beləliklə, həm tarixi baxımdan, həm beynəlxalq hüquq baxımından Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

İl ərzində münaqişə ilə bağlı Ermənistandan çox ziddiyyətli, bir-birini təkzib edən və cəfəng bəyanatlar səslənirdi. Gah deyirdilər ki, qondarma "Dağlıq Qarabağ respublikası" müstəqil dövlətdir və Azərbaycan bu dırnaqarası müstəqil dövlətlə danışıqlar aparmalıdır. Bu, yalandır, Dağlıq Qarabağ müstəqil dövlət deyil, heç bir ölkə bu qanunsuz qurumu tanımayıb, o cümlədən Ermənistan da tanımayıb və bu il ərzində danışıqlar prosesi Ermənistan və Azərbaycan arasında aparılmışdır. Beləliklə, bu cəfəng tezis tamamilə darmadağın edilmişdir. Gah deyirdilər ki, Dağlıq Qarabağ Ermənistandır və nöqtə. Belə populist bəyanatlar vermək olar, amma bu populist bəyanatların arxasında dayanmaq mümkün deyil. Bu da yalandır, Dağlıq Qarabağ Ermənistan deyil, bütün dünya bilir və mən bunu bir daha bəyan etmişəm ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi.

Əminəm ki, bizim ardıcıl, düşünülmüş siyasət münaqişənin həllinə gətirib çıxaracaq. İqtisadi gücümüz, hərbi gücümüz, siyasi gücümüz, demoqrafik artım - bütün bu amillər bizim mövqeyimizi gücləndirir. Əminəm, gün gələcək ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Buna nail olmaq üçün biz daha da güclü olmalıyıq və bu istiqamətdə bu il böyük addımlar atılmışdır.

2019-cu il tarixdə dərin islahatlar ili kimi qalacaq. Siyasi islahatlar, kadr islahatları, struktur islahatları, iqtisadi, siyasi və sosial sahələrdə aparılan islahatlar bizim gücümüzü artırmışdır. Bu il iqtisadiyyat artmışdır, iqtisadiyyatın qeyri-neft sektoru 3 faizdən çox artmışdır. Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Bu da dünya miqyasında 9-cu göstəricidir və bundan sonrakı illərdə xarici borcumuz daha da aşağı düşəcək. Bizim valyuta ehtiyatlarımız bu il 4,5 milyard dollar artmışdır və rekord həddə - 50 milyard dollara çatmışdır. Bizim valyuta ehtiyatlarımız xarici dövlət borcumuzdan 5 dəfədən çox artıqdır. Yəni, bu, ölkəmizin iqtisadi və maliyyə imkanlarının dayanıqlığını ifadə edir. Sənaye istehsalı artmışdır, xüsusilə qeyri-neft sektorunda sənaye artımı 14 faiz təşkil etmişdir. Kənd təsərrüfatında 7 faiz artım vardır. Yəni, bütün əsas istiqamətlər üzrə ölkəmizin uğurlu inkişafı reallıqdır.

Biz Beynəlxalq İnkişaf Assosiasiyasının hesabatında donor ölkəyə çevrildik. Biz indi borc alan yox, borc verən ölkəyik. Bütün bunlar düşünülmüş siyasətin təzahürüdür. Bütün bu uğurlu nailiyyətlər imkan verir ki, biz sosial sahəyə daha böyük həcmdə vəsait ayıraq və bunu etdik. Bu il də bu baxımdan çox yaddaqalan il olmuşdur. Çox geniş, hərtərəfli sosial paket təqdim edildi və bu sosial paket 4 milyon 200 min əhalini əhatə etdi. Bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 100 faiz, yəni, 2 dəfə artmışdır. Minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faiz artmışdır. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə biz bu gün MDB məkanında birinci yerdəyik. Bizim sosial siyasətimiz bir daha onu göstərir və mən dəfələrlə bəyan etmişəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əminəm ki, gələcək illərdə iqtisadi imkanlarımız genişləndikcə sosial sahəyə bundan da böyük diqqət göstəriləcək.

Şəffaflıq baxımından bu il çox uğurlu il olmuşdur. Vergi və gömrük orqanları xəzinəyə plandan əlavə 1 milyard manatdan çox vəsait daxil etmişlər və əlbəttə, bu, imkan verir ki, - əminəm, bu meyil gələn il də müşahidə olunacaq, - biz daha geniş miqyasda sosial və infrastruktur layihələri icra edək.

Məcburi köçkünlərin problemləri həll olunur. Bu il 5 mindən çox məcburi köçkün ailəsi, 800-ə yaxın şəhid ailəsi üçün yeni mənzillər, evlər tikilmişdir. Zəlzələdən əziyyət çəkmiş Şamaxı, İsmayıllı, Ağsu rayonlarının sakinləri üçün minlərlə ev tikilmişdir. Bu böyük zəlzələnin fəsadlarının mütləq əksəriyyəti cəmi 10 ay ərzində aradan qaldırıldı. Bu da unikal məsələdir, çünki bu, bizim niyyətimizi, gücümüzü göstərir. Azərbaycan dövləti və rəhbərlik bir daha göstərdi ki, hər zaman vətəndaşların yanındadır.

Bu il TANAP layihəsi istismara verildi, bu, tarixi layihədir. TANAP artıq Avropa İttifaqı sərhədinə çatdırıldı. Biz bu tarixi hadisəni bu ilin noyabr ayında böyük təntənə ilə qeyd etmişik. TANAP Cənub Qaz Dəhlizinin bir hissəsidir. Cənub Qaz Dəhlizi 4 layihədən ibarətdir və onlardan 3-ü – "Şahdəniz-2", Cənubi Qafqaz Qaz Kəməri və TANAP artıq reallığa çevrildi. Dördüncü layihə - TAP, o da artıq uğurla icra edilir və bu layihənin icra səviyyəsi 90 faizi ötübdür. Biz Avropanın, Avrasiyanın energetika və nəqliyyat xəritəsini yenidən cızırıq. Biz bu layihənin təşəbbüskarı olmuşuq. Biz əsas yükü - həm maliyyə, həm texniki məsuliyyəti öz üzərimizə götürmüşük və tərəfdaşlarla birlikdə bu nəhəng və böyük əhəmiyyət kəsb edən layihəni uğurla icra edirik.

Bu il turizm sahəsində rekord il olmuşdur. Bizim apardığımız siyasət, ölkəmizin inkişafı, ölkəmizdə hökm sürən təhlükəsizlik, əmin-amanlıq, Azərbaycanda keçirdiyimiz böyük mötəbər tədbirlərin nəticəsində bu il tarixdə ilk dəfə olaraq 3 milyondan artıq turist Azərbaycana səfər etmişdir.

Bu il 10 milyonuncu vətəndaş dünyaya gəldi. Bu da böyük tarixi hadisədir. Müstəqillik dövründə bizim əhalimiz 3 milyondan çox artmışdır. Bu, bizim həm gücümüzü, həm də məsuliyyətimizi artırır. Çünki artan əhali böyük üstünlükdür, eyni zamanda, iqtisadi artım artan əhalini daim qabaqlamalıdır. Artan əhali o deməkdir ki, yeni məktəblər, yeni uşaq bağçaları, yeni xəstəxanalar tikilməlidir, yeni iş yerləri yaradılmalıdır. Beləliklə, Azərbaycanın əhalisi artdıqca gücü də artır. Bu il dünyaya gələn gözəl Mehriban balamız bizim hamımızı sevindirdi. Allah onu xoşbəxt eləsin, Allah bütün uşaqlarımızı xoşbəxt eləsin, Allah bütün balalarımızı qorusun.

Bu gün, eyni zamanda, Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Mən fürsətdən istifadə edərək, dünyada yaşayan bütün azərbaycanlılara öz səmimi salamlarımı çatdırıram. Onlar bilməlidirlər və bilirlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanıb.

Əziz həmvətənlər, mən sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

---

***Ölkəmizin rəhbəri dekabrın 29-da Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.***

***Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 29-da Leyla Bədirbəylinin 100 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.***

***Dekabrın 30-da ölkəmizin rəhbəri sosial müdafiə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında fərman imzalayıb.***

***Dövlətimizin başçısı dekabrın 30-da Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında sərəncam imzalayıb.***

***Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 6-da meliorasiya və su təsərrüfatı sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Əhməd Cuma oğlu Əhmədzadənin 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Dövlətimizin başçısı yanvarın 6-da Azərbaycan Respublikasında auditor xidməti sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Vahid Tapdıq oğlu Novruzovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Ölkəmizin rəhbəri yanvarın 4-də Azərbaycanın pravoslav xristian icmasına Milad bayramı münasibəti ilə təbrik ünvanlayıb.***

***Dövlətimizin başçısı yanvarın 7-də Vüqar Əhmədovu "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) sədri vəzifəsinə təyin olunması ilə əlaqədar qəbul edib.***

***Ölkəmizin rəhbəri Tehran şəhəri yaxınlığında Ukrayna Beynəlxalq Hava Yollarına məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə bağlı Ukrayna prezidenti Vladimir Zelenskiyə və İran İslam Respublikasının prezidenti Həsən Ruhaniyə başsağlığı teleqramı göndərib.***

***Azərbaycan Respublikasının Birinci Vitse-prezidenti Mehriban Əliyeva 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni il münasibəti ilə Azərbaycan xalqını təbrik edib.***

***Dekabrın 30-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Heydər Əliyev Fondu tərəfindən Uşaq Psixonevroloji Mərkəzində aparılan əsaslı təmir işlərindən sonra yaradılan şəraitlə tanış olub, mərkəzin yeni korpusunun açılışında iştirak ediblər.***

***Heydər Əliyev Fondu dekabrın 30-da "Buta" sarayında Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində uşaqlar üçün şənlik təşkil edib.***

***Ənənəvi olaraq keçirilən şənliyə müxtəlif uşaq evlərində və internat məktəblərində tərbiyə alan, xüsusi qayğıya ehtiyacı olan uşaqlar dəvət alıblar.***

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, Fondun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva bayram şənliyində iştirak ediblər.***

***Dekabrın 30-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Bakının Nərimanov rayonunda "Birgə və Sağlam" İctimai Birliyinin nəzdində fəaliyyət göstərən autizm sindromlu uşaqlar üçün Reabilitasiya Mərkəzində olublar.***

# DAXİLİ İŞLƏR NAZİRİ BAYRAM ƏRƏFƏSİNDƏ ƏSGƏR VƏ ZABİTLƏRLƏ GÖRÜŞÜB



**Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində-dekabrın 29-da Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov DİN-in Daxili Qoşunlarının Şirvan şəhərində və Hacıqabul rayonunda yerləşən hərbi hissələrində olub.**



Qarşılanma mərasimlərindən sonra nazir hərbi hissələrin qərargahlarında "Şərəf kitabı"nı imzalayıb, nazir müavini - Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədovun və hərbi hissə komandirlərinin müşayiəti ilə əsgər və hərbi qulluqçuların kazarma-məişət şəraiti, maddi-texniki və ərzaq təminatı ilə maraqlanıb, tədris, silah otaqlarına, avtomobil və zirehli texnika parkına, tibb məntəqələrinə və yeməkxanalarına baxış keçirib.

Hərbi hissələrin sıra meydanlarında düzülmüş hərbi qulluqçuların və əsgərlərin qarşısında çıxış edən general-polkovnik V.Eyvazov ulu öndərin əsasını qoyduğu inkişaf və tərəqqi strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilməsi nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının artdığını, beynəlxalq mövqelərinin möhkəmləndiyini bildirib. O, möhtərəm dövlət başçımızın ümumən ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatına, iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb, Qoşunların bütün hərbi hissələrində geniş abadlıq və quruculuq işlərinin aparıldığını, müxtəlif təyinatlı obyektlərin, o cümlədən yeni hərbi şəhərciklərin, əsgər kazarmalarının tikildiyini, zabitlər, gizirlər üçün hər bir şəraitə malik yaşayış komplekslərinin istifadəyə verildiyini nəzərə çatdırıb.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə əsgər və zabitləri təbrik edən nazir, əmin olduğunu bildirib ki, Daxili Qoşunların şəxsi heyəti bundan sonra da ölkəmizdə sabitliyin, əmin-amanlığın etibarlı qorunmasına, cinayətkarlıqla qətiyyətli mübarizə işinə öz töhfəsini verəcək, qarşıya qoyulan bütün vəzifələri layiqincə yerinə yetirəcək, göstərilən ali diqqət və böyük etimadı xalqına, Vətəninə, dövlətinə və Prezidentinə sədaqətli xidməti ilə doğruldacaqdır.

Tədbirlərin sonunda hərbi hissələrin şəxsi heyətləri təntənəli marşın sədaları altında tribuna önündən keçiblər.

# SIRA BAXIŞI KEÇİRİLİB





**Kütləvi informasiya vasitələrində əvvəlcədən verilmiş elana uyğun olaraq,dekabrın 27-də Respublikanın Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov Abşeron, Salyan, İsmayıllı, Ucar, Kürdəmir, Şabran, Siyəzən, Xızı, Masallı, Şəmkir, Lənkəran şəhər, rayon polis orqanlarında və Bakı şəhər Baş Polis İdarəsinin tabeli orqanlarında vakant olan Post-Patrul Xidmətinin polis nəfəri vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.**

Aidiyyatı baş idarə və idarə rəislərinin də iştirak etdikləri tədbirdə nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb. 301 iddiaçının arasından daha hazırlıqlı olan 245 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Namizədlər qarşısında çıxış edən nazir daxili işlər orqanlarında xidmətə qəbulun şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirildiyini vurğulayaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hər bir ölkənin gələcəyinin, inkişafının geniş intellektual səviyyəli, müasir texnologiyaların sirlərinə bələd olan, vətənpərvər, milli-mənəvi dəyərlərə, dövlətçiliyə sadiq gənclərdən asılı olduğunu dəfələrlə vurğuladığını xatırladıb. O, belə yüksək mənəvi, işgüzar keyfiyyətlərə malik kadrların daxili işlər orqanlarında xidmətə qəbul üçün hər zaman əhəmiyyətli addımların atıldığını, hazırkı seçimlərin də göstərilən sahədə həyata keçirilən məqsədyönlü dövlət siyasətinin növbəti bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

General-polkovnik Vilayət Eyvazov gəncləri qarşıdan gələn 31 Dekabr "Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü" və "Yeni il" bayramı münasibəti ilə təbrik edərək gələcək fəaliyyətlərində uğurlar arzulayıb, hər zaman polis adını və şərəfini uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini, təcrübələrini artırmalarını, öz üzərlərində səylə çalışmalarını, insan və vətəndaş hüquq və azadlıqlarına, onların müraciətlərinə xüsusi diqqət və həssaslıqla yanaşmalarını, bir sözlə, vətəndaş məmnunluğunun təmininə öz layiqli töhfələrini verməlırini tövsiyə edib.

# POLİSLƏR TƏBRİKƏ GƏLMİŞDİLƏR





**31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Beyləqan, Xaçmaz, Xocavənd, Şəki və Daşkəsən Rayon Polis şöbələrinin əməkdaşları həmin rayonlarda yaşayan torpaqlarımızın müdafiəsi uğrunda şəhid olmuş soydaşlarımızın, eləcə də aztəminatlı ailələrin qonağı olub, onların bayram sevinclərinə qoşulublar.**

Ailələrə bayram sovqatları və hədiyyələr təqdim edən polis əməkdaşları onları təbrik edib, gündəlik qayğıları və problemləri ilə maraqlanıblar.



Görüşlərdə respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsinin xalqımız tərəfindən daim əziz tutulduğu, Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunduğu vurğulanıb.

Polis əməkdaşlarının bu təşəbbüsü vətəndaşlar tərəfindən böyük sevinclə qarşılanıb. Onlar göstərilən bu diqqət və qayğıya görə DİN rəhbərliyinə və bütün polis əməkdaşlarına minnətdarlıqlarını bildiriblər.

**Polis orqanlarına daxil olan zənglərə onlar cavab verirlər. Ünvanlanan hər bir sorğunu cavablandırır, gələn məlumatları, şəxsləri aidiyyatı üzrə istiqamətləndirirlər. Deməli, polis haqqında ilk təəssürat növbətçi hissələrdə formalaşır.**



Onlar 2020-ci ili də növbədə, xidmətdə qarşıladılar. Gərgin iş, tarıma çəkilən əsəblər, operativlik və əlbəttə ki, peşəkarlıq.

Xəttin o başında bəlkə də çarəsiz vəziyyətdə qalıb, "Mən sizdən kömək gözləyirəm",- deyən insanı hər şeyin yaxşı olacağına, üzləşdiyi problemin tezliklə həllini tapacağına inandırmaq növbətçidən xüsusi bacarıq tələb edir. İstər paytaxtda, istərsə də ən ucqarlarda xidmət aparan növbətçi həmkarlarımızın bəzən ümidini itirənə, insan var olduqca sevinc də, kədər də, uğur da, uğursuzluq da var, çətinliklərə baxmayaraq, həyat yaşandıqca gözəldir fəlsəfəsini anlatdıqları barədə xəbərləri çox eşitmişik...

# Növbədəkilər...

Növbətçilər mürgü belə vurmadan səhəri dirigözlü açar, cavabdeh olduğu işin məsuliyyətini çiyinlərində sevə-sevə daşıyarlar. Səngərdəki əsgər kimidirlər...

Bölgələrdəki növbətçilərin fəaliyyətini dəfələrlə izləmişik, hətta gördüklərimizi, müşahidələrimizi yazıya alıb bölüşmüşük də. Bu dəfə ötən ili növbədə yola salıb, yeni ili növbədə qarşılayan DİN Növbətçi Hissələri İdarəetmə Xidmətinin əməkdaşları ilə görüşmək, fəaliyyətlərini işıqlandırmaq üçün bayram günü əsl məqam idi.

Burda hər kəs öz işini bildiyi üçün boş, bekar dayanmaq söhbəti yoxdur.

Suallarımıza "atüstü" cavab vermək məcburiyyətində idilər və buna görə onları heç qınamadıq da. Xidmətin rəisi, polis polkovniki Mirəziz Mirəliyev vaxt tapan kimi suallarımızı cavablandırdı. Dedi ki, 24 saatlıq iş rejimi ilə çalışırlar. Burada bir gün də olsa iş dayanmır. "Növbətçi, növbətçi köməkçisi və operator gələn məlumatları ağırlıq dərəcəsinə görə operativ şəkildə çeşidləyirlər. Bakı şəhəri üzrə məlumatlar Bakı Şəhər Baş Polis İdarəsində toplanır və Nazirliyə ötürülür. Bölgələr isə birbaşa mərkəzi aparatla əlaqə saxlayırlar. Törədilən ağır cinayətlər xüsusi diqqət mərkəzində saxlanılır və DİN rəhbərliyinə məruzə olunur. Xarici vətəndaşlarla və polis əməkdaşları ilə bağlı məlumatlara xüsusi həssaslıq nümayiş etdirilir". Bunları da M.Mirəliyev dedi.

Özgələrin işığı yansın deyə onların işığı heç vaxt sönmür. Çünki işıq ümiddir, işıq güvənc yeridir. Polisin işığına üz tutanlar isə darda qalmırlar. Bunu isə o işığa pənah aparıb özünün, doğmalarının həyatlarını qurtaranlar deyirlər.

***Hafiz Təmirov,***
***polis mayoru***

# Tədbirlər keçirilib

Respublikanın daxili işlər orqanlarının əməkdaşları tərəfindən ictimai qaydanın, məişət



səs-küyünə qarşı mübarizə qaydalarının pozulmasına yönəldilmiş hərəkətlərin, eləcə də yüksək səsyayıcı qabiliyyətinə malik olan partlayıcı oyuncaqların və pirotexniki məmulatların qeyri-qanuni dövriyyəsinin qarşısının alınması məqsədilə zəruri tədbirlər görülür.

DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinin əməkdaşları tərəfindən Yeni il ərəfəsində əhalinin ciddi narazılığına səbəb olan, məişət səs-küyünə qarşı mübarizə qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə dekabrın 16-dan 30-dək respublika ərazisində tədbirlər keçirilib. Nəticədə ayrı-ayrı fiziki və hüquqi şəxslərdən ümumilikdə 31 min 400 ədədə yaxın yüksək səsyayıcı qabiliyyətinə malik olan partlayıcı oyuncaq və pirotexniki məmulatlar aşkar edilərək götürülüb.

***Natiq Cavadov,***
***polis mayoru***

# POLİS DAİM XİDMƏTDƏDİR!

**Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar paytaxtın Dənizkənarı Milli Parkı ilə yanaşı respublikanın digər şəhər və rayonlarındakı parklara və mərkəzi küçələrə insanların axını müşahidə olunub.**




Bayram günlərində vətəndaşlarımızın təhlükəsizliyinin təmin olunması, ictimai asayişin yüksək səviyyədə qorunması üçün şənliklərin təşkil olunduğu, insanların sıx toplaşdığı yerlərdə polis naryadlarının sayı artırılıb.

Gecə saatlarına qədər davam edən konsert proqramları və gəzinti zamanı vətəndaşlarımızın hər hansı bir çətinliklə üzləşmədən rahat istirahəti, avtomobillərin intensiv hərəkətinin təmini məqsədi ilə bütün lazımi tədbirlər görülüb.

***Zeyni Hüseynov,***
***polis leytenantı***

# UĞURLARLA DOLU BİR İL

**Yola saldığımız il də idmançılarımızın uğurları ilə yadda qaldı. Dünyanın ən mötəbər idman arenalarını fəth edənlərin sırasında DİN İdman Cəmiyyətinin yetirmələrinin olmasını da eşitmək xoşdur.**




Ötən ilin son günləri Qazaxıstanın Almatı şəhərində ənənəvi olaraq Müstəqillik Gününə həsr olunmuş Kombat ciu-citsu üzrə yarış keçirilib. "Yüksək idman nailiyyətləri mərkəzi"ndə baş tutan yarışda ölkəmizi DİN İdman Cəmiyyətinin üç idmançısı təmsil edib. Komandamız respublikanın Əməkdar məşqçisi, DİN İdman Cəmiyyətinin əlbəyaxa döyüş üzrə baş məşqçi-müəllimi Rəsul Məmmədovun rəhbərliyi altında mübarizə aparıb.

Uşaq, yeniyetmə və gənclər arasında keçirilən yarışda Rusiya, Qırğız Respublikası, Özbəkistan, Qazaxıstan və Azərbaycandan olan 340 idmançı gücünü sınayıb.

Yarışda 12-13 yaş kateqoriyasında Eyyub Əkbərov, 16-17 yaş kateqoriyasında isə Esmira Məmmədova bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Azərbaycan komandası bürünc medal qazanıb.

Yeri gəlmişkən, ötən ilin oktyabrında da Kiyevdə Kombat ciu-citsu üzrə gənclər və yaşlılar arasında Dünya çempionatı keçirilib. 20 ölkədən 345 idmançının iştirak etdiyi çempionata yığmamız 5 nəfərlik heyətlə qatılıb. Yarışlar güləş, tamkontaktlı döyüş və özünümüdafiə olmaqla üç kateqoriyada keçirilib.

"Güləş" kateqoriyasında 16-17 yaşlı idmançılar arasında Fidan Yusifova və Yasər Əhədli qızıl medala layiq görülüblər. Tamkontaktlı döyüş yarışlarında çıxış edən Yasər Əhədli bu dəfə gümüş medal əldə edib. Eyni kateqoriyada çıxış edən Zaur Məmmədov isə bürünc medalla kifayətlənməli olub.

Yaşlı idmançılar arasında "Güləş" kateqoriyasında çıxış edən Ramin Kazımov isə bürünc medal qazanıb.

Beləliklə, 6 medal qazanmış Azərbaycan yığması ümumi komanda hesabında üçüncü yeri tutub və Dünya çempionatının komanda kuboku ilə təltif edilib.

***Ruslan Vəliyev,***
***polis leytenantı***

# Bir taleyin işığında...

**Onunla bayramlar ərəfəsində xoş xəbər görüşdürdü bizi. İstefada olan polis mayoru Şaiq Əliyev bu yaxınlarda Gənclər və İdman Nazirliyi tərəfindən "Fəxri bədən tərbiyəsi və idman işçisi" fəxri adına layiq görülüb. 80 yaşlı veteranımız ömrünün 65 ilini idmana həsr edib. Bu müddətdə təcrübəsini, səylərini gənc idmançıların yetişməsinə böyük əmək sərf edib.**

Tale hamı kimi onu da çox sınaqlara çəkib. Bərkə-boşa düşsə də bu sınaqlardan ləyaqətlə çıxmağı bacarıb.

Yaşı 80-i haqlamasına baxmayaraq şuxluğu da, əhval ruhiyyəsi də öz yerindədir. İllər saçlarını ağartsa da, qəddi-qaməti əyilməyib.

1962-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman İnstitutunu, 1975-ci ildə isə SSRİ Daxili İşlər Nazirliyinin Xüsusi Milis Məktəbini bitirib. İdmanla kiçik yaşlarından məşğul olub. İdmanın yüngül atletika və hündürlüyə tullanma növü üzrə dəfələrlə birinci yerin sahibi olub. O, hələ 1963-cü ildə "SSRİ idman ustası" adını qazanıb. İdmanda əldə etdiyi nailiyyətlərlə yanaşı, daxili işlər orqanlarında da xidməti vəzifələrinə məsuliyyətlə yanaşıb, gənc əməkdaşların fiziki hazırlığı üçün əlindən gələni əsirgəməyib. 1967-ci ildən 1992-ci ilə qədər Nərimanov RPİ-də baş sahə inspektoru və fiziki hazırlıq üzrə təlimatçı vəzifələrində çalışıb. 70 ildir ki, idmanda olan Şaiq müəllimin son iş yeri Azərbaycan Dövlət Neft Akademiyasında İdman Kompleksinin direktoru kimi fəaliyyət göstərməsi olub.



Həyatından razıdır. DİO-da xidmət etdiyi illəri isə ömrünün ən dəyərli günləri sayır. Gözəl ailə sahibidi, iki övladı, üç nəvəsi var.

Ağsaqqal həmkarımızın fikrincə, ölkə və DİN rəhbərliyinin diqqət və qayğısı əməkdaşlarımıza, o cümlədən gənclərə daha yaxşı işləmək və özünü müsbət tərəfdən göstərmək imkanı verir. Deyir ki, gənc əməkdaşlar indi daha səylə və məsuliyyətlə çalışmalı, öz üzərlərində işləməli, dünyagörüşlərinin və peşəkarlıqlarının artırılması qeydinə qalmalı, bu yolda ağsaqqal həmkarlarının da bilik və bacarıqlarından yararlanmalıdırlar.

Qürurla danışdı öz həyat hekayəsini. Sonda əlavə etdi ki, gərək hər bir insan öz işinə vicdanla yanaşsın. Bax, o zaman həyatda yaşamaq gözəl olur.

Biz isə öz növbəmizdə ürəyi yaşayıb-yaratmaq eşqi ilə döyünən, şərəfli ömür yaşayan həmkarımıza yenə də gözəl, mənalı illər, ən əsası, cansağlığı arzulayırıq.

***Aytəkin Nəcəfova,***
***polis polkovnik-leytenantı***

# DAXİLİ İŞLƏR NAZİRLİYİ VƏ BAŞ PROKURORLUĞUN MƏTBUAT XİDMƏTLƏRİNİN MƏLUMATI

Tovuz rayonunun Dondar Quşçu kənd sakini 10 yaşlı Nərmin Quliyevanın 2019-cu il noyabrın 21-də itkin düşməsi və bu il yanvarın 6-da yanmış meyitinin tapılması ilə əlaqədar sosial şəbəkələrdəki bəzi səhifələrdə həmin azyaşlının gec tapılmasında hüquq mühafizə orqanlarını məqsədli və qərəzli olaraq ittiham etməyə cəhdlər göstərilir.

Bununla əlaqədar bildiririk ki, 2019-cu il noyabrın 21-də saat 23:00 radələrində vətəndaş Şərif Quliyev Daxili İşlər Nazirliyinin "102 – Xidməti"nə zəng edərək qızı Nərmin Quliyevanın evdən getməsi və geri qayıtmaması barədə məlumat vermiş, həmçinin eyni məzmunlu ərizə ilə Tovuz Rayon Polis Şöbəsinə müraciət etmişdir.

Polisdə dərhal lazımi araşdırmalara başlanılaraq Şərif Quliyevin və aidiyyəti kənd sakinlərinin izahatı alınmış, yaşadığı evə baxış keçirilmiş, zəruri əməliyyat tapşırıqları verilmiş və toplanmış materiallar 2019-cu il noyabrın 28-də Baş Prokurorluğunun Ağır Cinayətlərə dair işlər üzrə istintaq idarəsinə göndərilmişdir.

Aparılmış araşdırmalarla Nərmin Quliyevanın qəsdən öldürülməsinə kifayət qədər əsaslar müəyyən edildiyindən həmin tarixdə Cinayət Məcəlləsinin 120.2.9-cu (təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı qəsdən öldürmə) maddəsi ilə cinayət işi başlanılaraq Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılmış, habelə Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin kinoloji qrupunun təlimatçıları xüsusi təlim keçmiş itlərlə Dondar Quşçu kəndi və ətraf ərazilərdə axtarışlara cəlb edilmişlər.

Yanvarın 6-da azyaşlının meyitinin aşkar olunması ilə əlaqədar dərhal Daxili İşlər Nazirliyinin, Baş Prokurorluğun rəhbər vəzifəli şəxsləri və digər əməkdaşları, eləcə də Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin və Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Elmi-Təcrübi və Tədris Birliyinin təcrübəli mütəxəssisləri Tovuz rayonuna ezam olunmuşlar.

Müəyyən edilmişdir ki, Şərif Quliyev 2019-cu il noyabrın 21-də saat 14:00 radələrində özünə məxsus gödəkçəni gətirmək üçün qızı Nərmin Quliyevanı həmin kənddə yaşayan qardaşının evinə göndərmiş və Nərmin Quliyeva əmisinin evinə gedib oradan çıxdıqdan sonra naməlum şəraitdə itkin düşmüşdür.

2020-ci il yanvarın 6-da saat 19:30 radələrində isə kənd sakini İlkin Süleymanov evlərindən təxminən bir kilometr aralıda Nərmin Quliyevanın meyitini aşkar etmiş və bu barədə dərhal polisə məlumat vermişdir.

Təxirəsalınmadan hadisə yerinə və meyitə mərhumun atasının və əmisinin iştirakı ilə baxış keçirilmiş, iş üzrə məhkəmə-tibbi, kriminalistik, bioloji, kimyəvi ekspertizalar təyin edilmiş, çoxsaylı şahidlər dindirilmiş, aidiyyəti orqanlara sorğular və əməliyyat tapşırıqları göndərilmişdir.

Cinayətin qısa müddətdə açılması və onu törətmiş şəxsin yaxud şəxslərin müəyyənləşdirilməsi üçün intensiv istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri keçirilir. Nəticələri barədə əlavə məlumat veriləcəkdir.

*7 yanvar 2020-ci il*

# ZƏFƏR SALNAMƏSİ

**30 il əvvəl, Azərbaycanda vüsət alan milli-azadlıq hərəkatını elə ilk mərhələdə boğmaq istəyən Sovet imperiyasının Bakını qanına qəltan etdiyi günlər heç vaxt unudulmur, unudulmayacaq...**

1990-cı ilin 20 Yanvarı Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olub. Ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən azadlıq fədailəri Bakının küçələrinə və meydanlarına çıxaraq SSRİ rəhbərliyinin siyasətinə öz qəti etirazlarını bildirirdilər. Öz haqqını tələb edən geniş xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməmiş faciəyə gətirib çıxarmışdı. Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi Mixail Qorbaçov başda olmaqla, cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, əyilməzliyini, məğrurluğunu nümayiş etdirdi. Məhz bunun nəticəsində uzun illərdən bəri arzusunda olduğumuz müstəqilliyə qovuşduq və ölkəmiz suverenlik əldə etdi.




Qanlı 20 Yanvar faciəsi xalqımızın əzmkarlığını, vətənpərvərlik hissinin qüdrətini göstərən və yaşadan zəfər salnaməsidir.

20 Yanvar faciəsi nəticəsində 131 nəfər öldürülmüş, 744 şəxs yaralanmışdır. Hərbi qulluqçular tərəfindən şəxsi, ictimai, o cümlədən təcili yardım maşınları sıradan çıxarılmış, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət və şəxsi əmlak məhv edilmişdir. Sovet qoşunları yanvarın 25-də fövqəladə vəziyyət elan olunmayan rayonlara – Neftçalaya, bir gün sonra isə Lənkərana yeridilmişdir. Nəticədə 8 nəfər qətlə yetirilmiş, xeyli adam yaralanmışdır.

20 Yanvar faciəsi törədiləndən dərhal sonra ümummilli lider Heydər Əliyev və ailə üzvləri Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək orada təşkil olunmuş izdihamlı yığıncaqda çıxış etmiş, heç nədən qorxmadan və çəkinmədən faciə ilə əlaqədar xalqına başsağlığı vermiş və mətbuat konfransında başda Qorbaçov olmaqla Bakıdakı bu faciələri böyük cinayət, bu cinayətə rəvac verənləri cinayətkar adlandırmışdı.

Bu faciə Azərbaycan tarixinin ən qanlı səhifələrindən biri olsa da, xalqımızın iradəsini, milli azadlıq əzmini qıra bilmədi.

***Ruhiyyə Əliyeva,***
***polis baş leytenantı***

### NARKOTİK SATAN ŞƏXSLƏR SAXLANILIBLAR

Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunuz dövriyyəsi və alqı-satqısı ilə məşğul olan şəxslərə qarşı növbəti əməliyyat tədbiri həyata keçirilib. Belə ki, Baş İdarəyə iki nəfər şəxsin sosial şəbəkələr vasitəsi ilə narkotik vasitələrin satışını həyata keçirmələri barədə əməliyyat məlumatı daxil olub. Paytaxtın Nizami rayonunda keçirilən tədbir zamanı həmin şəxslər-əvvəllər məhkum olunmuş Lənkəran şəhər sakinləri Hüseyn Dadaşov və Ziya Qasımzadə tutulublar. Onların üzərlərinə baxış zamanı külli miqdarda - 47,691 qram heroin və 40,063 qram psixotrop maddə olan metamfetamin aşkar olunaraq götürülüb.



Araşdırma zamanı müəyyən edilib ki, bu şəxslər istintaqa şəxsiyyəti məlum olmayan "Mehdi" adlı İran vətəndaşı ilə əlaqə saxlayaraq ondan narkotik vasitə və psixotrop maddələr əldə ediblər. Daha sonra H.Dadaşov və Z.Qasımzadə narkotik vasitələrin sosial şəbəkələrdə satışını həyata keçiriblər. Həmin şəxslər narkotik vasitələri paytaxtın müxtəlif yerlərinə qoyaraq həmin ünvanın şəklini çəkib onlardan heroin və ya metamfetamin alan şəxslərə göndəriblər.

Faktla bağlı saxlanılan şəxslər barəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, əməliyyat tədbirləri davam etdirilir.

### SİLAH AŞKARLANIB

Daxili işlər orqanlarının əməkdaşları tərəfindən qanunsuz saxlanılan silah-sursatın aşkarlanaraq götürülməsi istiqamətində tədbirlər davam etdirilir.

DİN-in Mətbuat Xidmətinin Gəncə regional qrupundan verilən məlumata görə, Gəncə Şəhər Baş Polis İdarəsinin Cinayət Axtarışı İdarəsinin əməkdaşlarının daxil olan məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində şəhər sakini, əvvəllər məhkum olunmuş 38 yaşlı Bəhram Səmədov saxlanılaraq Baş Polis İdarəsinə gətirilib. Onun üzərinə baxış



zaman 1 ədəd " Makarov" tipli tapança, həmin silaha məxsus sandıqca ilə birlikdə 5 ədəd güllə aşkar olunaraq götürülüb.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

### ŞÜBHƏLİLƏRİN İZİ İLƏ...

Yanvarın 5-də Bakı şəhər sakinləri Z.Əkbərov və A.Tağıyevin xəsarətlə xəstəxanaya yerləşdirilməsi və A.Tağıyevin orada ölməsi barədə Binəqədi RPİ-nin 7-ci Polis Bölməsinə məlumat daxil olmuşdur.

Dərhal rayonun polis və prokurorluq orqanlarının əməkdaşları tərəfindən müvafiq tədbirlər həyata keçirilmişdir.

Araşdırmalarla onların həmin gün saat 1 radələrində E.Babayev küçəsində münaqişə zəminində bıçaqlanmaları müəyyən edilmişdir.

Təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində bu cinayət əməlini törətməkdə şübhəli bilinən Bakı şəhər sakinləri O.Binnətov və V.Babayev saxlanılmışlar.

### ETİRAF ETDİ Kİ...

Sabunçu Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində narkotik vasitələrin qanunuz dövriyyəsi ilə məşğul olmaqda şübhəli bilinən, təqsirləndirilən şəxs qismində cəlb edilməklə barəsində axtarış elan edilən Maştağa qəsəbə sakini Cavidan Babayev saxlanılıb.

Qeyd edək ki, Sabunçu RPİ-nin 14-cü Polis Bölməsi əməkdaşlarının ötən il noyabr ayının 12-də Maştağa qəsəbəsində C.Babayevə məxsus evdə keçirdikləri əməliyyat zamanı onun həyətyanı sahəsində yerləşən istixanadan 316 ədəd ümumi çəkisi 12 kiloqram 710 qram olan narkotik tərkibli əkilib-becərilməsi qadağan olunan çətənə bitkisi aşkar olunmuşdu. Həmçinin C.Babayevin evinə baxış keçirilən zaman 1 ədəd sənədsiz ov tüfəngi, 7 ədəd patron və ümumi çəkisi 30 qramdan artıq olan qurudulmuş marixuana da müəyyən edilərək polislər tərəfindən götürülmüşdü. Həmin vaxt ev sahibi C.Babayev polis əməkdaşlarından qaçaraq bir müddət gizlənsə də, sonuncu əməliyyat zamanı o saxlanılaraq istintaqa təqdim edilib.

Tutulan zaman C.Babayev əlavə olaraq yaşadığı evin müxtəlif yerlərində gizlətdiyi kibrit qutularında qablaşdırdığı ümumi çəkisi 160 qramdan artıq



olan qurudulmuş marixuananı da polis əməkdaşlarına təhvil verib. Saxlanılan şəxs ifadəsində narkotik vasitələri həm şəxsi istifadəsi, həm də satmaq məqsədi ilə əkdiyini etiraf edib.

Faktla bağlı saxlanılan şəxs barəsində Sabunçu RPİ-nin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

# BAYRAMA HƏSR OLUNMUŞ YARIŞ KEÇİRİLİB



**Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə ölkəmizdə müxtəlif bayram tədbirləri, idman yarışları keçirilib. Belə yarışlardan biri də DİN İdman Cəmiyyətində gerçəkləşib. İdman Cəmiyyətində yeniyetmələr arasında kikboxinq üzrə açıq birincilik keçirilib.**

Yarışın əvvəlində İdman Cəmiyyətinin sədri, polis polkovniki Zemfira Meftaxetdinova milli həmrəyliyimizin, birliyimizin əhəmiyyətindən danışıb, yeniyetmə və gənclərə yüksək nailiyyətlər, parlaq qələbələr qazanmağı, bayrağımızı ucaltmağı arzulayıb. Qeyd olunub ki, ölkəmizdə sağlam həyat tərzi keçirmək, idmanda yüksək nailiyyətlər əldə etmək üçün ən mükəmməl, gözəl şərait, təcrübəli məşqçilər var.

Sonra yarışa start verilib. Zala toplaşan valideynlərin də həyəcanla izlədiyi bu yarışda 110 nəfərdən çox yeniyetmə idmançı gücünü sınayıb. Açıq birinciliyə qatılan yeniyetmələrdən 30 nəfəri İdman Cəmiyyətinin təmsilçiləri idi. Yarışda 10 idman klubu arasında DİN-in İdman Cəmiyyətinin yetirmələri birincilik qazanıb.

Turnirin sonunda yer tutan idmançılara təşkilatçılar tərəfindən müxtəlif mükafatlar təqdim olunub.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# QƏHRƏMANLAR UNUDULMUR



Mehdi Abbasov 1960-cı il yanvar ayının 1-də Qərbi Azərbaycanın Amasiya rayonunun Yeniyol kəndində anadan olub. 1976-cı ildə elə bu kənddə orta məktəbi bitirib. 1977-ci ildə ailələri Qazaxıstana köçüb. 1985-ci ildə Karaqanda Pedaqoji İnstitutunu ibtidai-hərbi hazırlıq və bədən tərbiyəsi müəllimi ixtisası üzrə bitirib, kənd məktəbində müəllim işləyib. Güləş üzrə "SSRİ idman ustası" idi. Daxili İşlər Orqanlarında xidmətə göndərilib. SSRİ DİN-in Stavropol Ali Kurslarını bitirib, sahə inspektoru işləyib.

Azərbaycanın başı üstünü qara buludlar alanda Mehdi öz xahişi ilə 1991-ci il iyun ayının 28-də Azərbaycan Respublikası DİN-nin sərəncamına göndərilib. Ağdam, Goranboy, Füzuli rayonlarında keçirilən döyüş əməliyyatlarında fəal iştirak edib, erməni silahlı birləşmələrinə sarsıdıcı zərbələr vurub.

1991-ci ilin sentyabrında Goranboy rayonunda vertolyotla növbəti əməliyyatdan qayıdarkən ermənilər onları güclü atəşə tutublar. Pilot başqa çıxış yolu görmədiyi üçün vertolyotu düşmən əhatəsində yerə endirib. Bu, son dərəcə təhlükəli idi. Mehdi çoxlu erməni quldurunu məhv edərək, dəstəsini təhlükəsiz yerə çatdırıb.

Döyüşlərdə göstərdiyi şücaətə görə 4 dəfə DİN-nin mükafatına layiq görülmüşdü. 1992-ci il yanvarın 13-də qızğın döyüşlərin birində qəhrəmancasına şəhid olub.

Baş leytenant Mehdi Abbasov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb. İsmayıllı rayonunun mərkəzi küçələrindən biri onun adınadır.

*Natiq Abdullayev,*
*polis kapitanı*

# AXTARIŞ ÇOX ÇƏKMƏDİ

"1-ci qrup əlil olan oğlumun itkin düşməsi ilə bağlı etdiyim müraciətə operativ reaksiya verilərək qısa zaman kəsimində sağ-salamat tapılmasına, vətəndaşların müraciətlərinə belə həssaslıqla yanaşılmasına, eləcə də yüksək peşəkarlıq nümayiş etdirdiklərinə görə Azərbaycan Polisinə çox sağ olun deyirəm."

Bu sözləri paytaxtın Suraxanı rayon sakini Çiçək Məmmədli DİN-ə ünvanladığı minnətdarlıq məktubunda yazır...

Hadisə isə belə olub. Dekabrın 11-i saat təxminən 16:30 radələrində Ç.Məmmədli "Dostluq" kinoteatrı yaxınlığında idarələrdən birində olub. Sonra Binəqədi rayonuna işi ilə əlaqədar sənəd götürməyə gedib. Avtomobilinə minib evə qayıdanda, bayaqdan yatmış bildiyi uşaq tərəfə baxanda onu yerində görməyib. Fikirli olduğu üçün uşağın nə vaxt, harda maşından düşdüyündən xəbəri olmayıb. Tez-tələsik şəhərə qayıdıb və "102 Xidməti Zəng Mərkəzi"ni yığıb.

Nəsimi RPİ-nin 21-ci Polis Bölməsinə məlumat daxil olan kimi təcili axtarış tədbirlərinə başlanılıb. Həmin ərazidəki müşahidə kameralarında görüntülər izlənilib və uşağın maşından düşərək getdiyi istiqamət müəyyən edilib. Çox keçmədən polis əməkdaşları uşağı taparaq ailəsinə təhvil veriblər.

## İTKİN DÜŞƏN AZYAŞLI TAPILARAQ AİLƏSİNƏ QAYTARILDI

**Quba rayon sakini Aslan İslamov gecə saatlarında Rayon Polis Şöbəsinə müraciət edərək 2017-ci təvəllüdlü azyaşlı qızı Ayla İslamlının yaşadıqları evin həyətindən çıxaraq itkin düşməsi barədə məlumat verib.**

Məlumatla əlaqədar RPŞ-nin əməkdaşları dərhal rayon ərazisində axtarışlara başlayıblar. Keçirilmiş axtarış tədbirləri nəticəsində itkin düşən 3 yaşlı qız polis əməkdaşları tərəfindən qısa bir müddətdə tapılaraq ailəsinə təhvil verilib.



Azyaşlı qızın valideynləri gecə saatlarında onların müraciətlərinə həssaslıqla yanaşaraq övladlarının sağlam halda, heç bir zərər görmədən tapılmasında göstərdikləri əvəzolunmaz xidmətə görə başda DİN rəhbərliyi olmaqla Azərbaycan Polisinə dərin minnətdarlıqlarını bildiriblər.

*Teymur Əlizadə,*
*Nizam Həmidov*

# Tiryək gətirən şəxs saxlanılıb

**Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsi və alqı-satqısına qarşı növbəti uğurlu əməliyyat tədbiri həyata keçirilib.** Belə ki, Baş İdarəyə İrandan Azərbaycana qaçaqmalçılıq yolu ilə külli miqdarda narkotik vasitənin keçiriləcəyi barədə əməliyyat məlumatı daxil olub. Məlumat əsasında Cəlilabad rayonu ərazisində həyata keçirilən əməliyyat zamanı rayon sakini əvvəllər məhkum olunmuş Anar Bağırov saxlanılıb. Onun idarə etdiyi "KİA" markalı avtomobilə baxış zamanı ümumi çəkisi 10 kiloqram 77,780 qram narkotik vasitə olan tiryək və 1 ədəd elektron tərəzi aşkar olunaraq götürülüb.



Araşdırma zamanı müəyyən edilib ki, Anar Bağırov istintaqa şəxsiyyəti məlum olmayan İran vətəndaşından tamah niyyəti və satış məqsədi ilə narkotik vasitə olan tiryək əldə edib. Daha sonra həmin narkotik vasitələri Bakıya gətirmək istəyən zaman, polis əməkdaşları tərəfindən saxlanılıb.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb və Anar Bağırov barəsində Nərimanov rayon məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

*07 yanvar 2020-ci il*

# SABİTLİK ADASI



Son illərdə turizmin inkişafı ölkəmizin əsas prioritetlərindən birinə çevrilib. Qəbul edilən müvafiq dövlət proqramları, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, həyata keçirilən islahatlar ölkə rəhbərliyinin bu sahəyə olan diqqət və qayğısının əyani sübutudur. Turizmin inkişafı üçün zəngin mədəniyyət, tarixi abidələr mühüm rol oynasa da başlıca şərtlərdən biri ictimai asayişin, sabitliyin təmin edilməsidir. Bu gün dünyanın bəzi ölkələrində xaos, anarxiya tüğyan etdiyi halda, respublikamızda ölkə rəhbərliyinin düşünülmüş siyasi kursu nəticəsində sabitlik, əmin-amanlıq hökm sürür. Elə bunun nəticəsidir ki, Azərbaycan dünyada sabitlik adası kimi tanınır. Zəngin tarixi abidələr, mədəniyyət, tolerantlıq, sabitlik-bütün bunlarla birlikdə Azərbaycan turizm ölkəsi kimi xarici qonaqları özünə cəlb edir.

Ölkəmizə üz tutan əcnəbi qonaqların, eləcə də yerli turistlərin təhlükəsizliyinin, onların rahat istirahətinin təmin edilməsi, bu məsələnin nəzarətdə saxlanılması daxili işlər orqanları əməkdaşlarının da daim diqqət mərkəzindədir. Ölkəmizin evsahibliyi etdiyi bir sıra beynəlxalq yarışlarda təhlükəsizliyin yüksək səviyyədə qorunması, turistlərin müraciətlərinə operativ reaksiya verilməsi onlarda da Azərbaycan Polisi haqqında müsbət fikir formalaşdırıb.

Ölkəmizin turizm bölgələrindən biri olan Qəbələyə də hər il minlərlə turist səyahət edir. Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən onlara göstərilən xoş ünsiyyət, rəftar, köməklik və müraciətlərinə verilən operativ reaksiya əcnəbi və yerli qonaqlar tərəfindən müsbət qarşılanır, burada özlərini təhlükəsiz hiss etmələrini təmin edir. Şri-Lankadan ölkəmizə səyahət edən Minhaj deyir ki, mən burada özümü çox rahat hiss edirəm. Təhlükəsizlik cəhətdən hər şey yaxşıdır. Günün istənilən vaxtında küçədə heç bir maneə ilə rastlaşmadan gəzə bilirik. Mən hamıya məsləhət görərdim ki, Azərbaycana səyahət eləsin. Başqa bir hindistanlı turist isə polisin fəaliyyətindən məmnunluğunu dilə gətirir. O, ölkəmizdə polislərin onları həmişə gülərüzlə qarşıladığını, müraciət etdikləri zaman müsbət cavab aldıqlarını bildirir.

*Mahir Məsimov,*
*polis baş leytenantı*




***İspaniyanın Marbelya şəhərində polislər üç yeniyetmədə narkotik vasitələr tapılandan sonra istintaqa başlayıblar. Hadisə belə olub: Məktəblərin birində kinoloji sərgi keçirilirmiş. Xüsusi bölmə ilə tanışlığın öncə meydançada keçirilməsi nəzərdə tutulub, lakin külək və yağış səbəbindən tədbir təhsil müəssisəsində keçirilib. Nümayiş zamanı heyvanlar narkotik iyi hiss ediblər. Araşdırma zamanı 14-15 yaşlı üç məktəblidə narkotik aşkarlanıb.***

*****

Türkiyənin Ədirnə şəhərində axtarışda olan şəxsi polis sosial şəbəkə vasitəsilə yaxalayıb. Barəsində həbs qərarı olan və ələ keçməmək üçün tez-tez yerini dəyişən şəxsi polis "İnstagram"da saxta hesab açaraq qız adı ilə onunla danışıb. Daha sonra şübhəlini ticarət mərkəzində görüşə çağıran polis onu avtomobilində yaxalayıb.

*****

***Komi Respublikasının Vorkuta şəhərində 8 yaşlı qız anasının dostu olduğunu və ona sürpriz hazırladığını deyən oğruya qapını açıb. Oğru evə girəndən sonra uşaq özü evdən çıxaraq qapını bağlayıb. Dərsə gedən qız yolda anasına zəng edərək hadisəni danışıb, anası isə bu barədə polisə xəbər verib.***

***Polis əməkdaşları oğrunu noutbuk, planşet, fotoaparat, zinət və digər qiymətli əşyaları torbaya yığdığı zaman yaxalayıblar.***

*C.Natiq*

# Yanvar ayının 1-dən 7-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, son həftə ərzində törədilmiş 135 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 60 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 53, o cümlədən borclu şəxs qismində axtarışda olan 32 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 17 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 17 nəfər ölmüşdür.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 60 fakt müəyyən edilmişdir.

NBPİ Su Nəqliyyatında Polis İdarəsinin rəisi Rövşən Eyyubov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**NEMƏT SEYİDOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bərdə RPŞ-nin rəisi Muradəli Babayev və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**NEMƏT SEYİDOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəmkir RPŞ-nin rəisi Elnur Həsənov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**NEMƏT SEYİDOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan ŞPŞ-nin rəisi Hikmət Quliyev və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**NEMƏT SEYİDOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəki ŞRPŞ-nin rəisi Azər Muradov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**NEMƏT SEYİDOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lənkəran ŞRPŞ-nin rəisi Fəqan Azadəliyev və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**NEMƏT SEYİDOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sabunçu RMİ-nin rəisi Əşrəf Allahyarov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**NEMƏT SEYİDOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Masallı RPŞ-nin rəisi Habil Əmiraslanov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**NEMƏT SEYİDOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Siyəzən RPŞ-nin rəisi Valik Vəlimətov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**NEMƏT SEYİDOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mingəçevir ŞPŞ-nin rəisi Hikmət Qasımov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**NEMƏT SEYİDOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Astara RPŞ-nin rəisi Azər Cahangirov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**NEMƏT SEYİDOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Göygöl RPŞ-nin rəisi Müqalib Abdıyev və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**NEMƏT SEYİDOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daşkəsən RPŞ-nin rəisi Azay Ağayev və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**NEMƏT SEYİDOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Göyçay RPŞ-nin rəisi Sənan Əsədov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**NEMƏT SEYİDOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qazax RPŞ-nin rəisi Ədalət Əliyev və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**NEMƏT SEYİDOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Biləsuvar RPŞ-nin rəisi Əlyəddin Səfərov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**NEMƏT SEYİDOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neftçala RPŞ-nin rəisi Vüsal Şəbəndiyev və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**NEMƏT SEYİDOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zaqatala RPŞ-nin rəisi Vəfadar Orucov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**NEMƏT SEYİDOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yevlax RPŞ-nin rəisi Elnur Mehdiyev və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**NEMƏT SEYİDOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kəlbəcər RPŞ-nin rəisi Haxverdi Əkbərov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**NEMƏT SEYİDOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Oğuz RPŞ-nin rəisi Vüqar Əliyev və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**NEMƏT SEYİDOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağsu RPŞ-nin rəisi Fəxrəddin Abbasov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**NEMƏT SEYİDOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağstafa RPŞ-nin rəisi Elsevər Aslanov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**NEMƏT SEYİDOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gədəbəy RPŞ-nin rəisi Mehman Həşimov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**NEMƏT SEYİDOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
BURAXILIŞA MƏSUL: E.ZAHİDOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.724
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 18:30
Qiyməti 40 qəpik